# ALTIBARMAQ

(Esse)

Nə qədər ki, sıravi müəllim idi, heç nəylə maraqlanmırdı, əlində proqramı, vaxtında məktəbə təşrif buyurar, dərsini deyib, evinə yollanardı. Elə ki, direktor kimi fəaliyyətə başladı, böyük bir müəllim-şagird kollektivinə rəhbərlik elədi, qara üzlü, iri bloknot gəzdirməyə meylləndi Əliqulu müəllim. Hara dəvətli olurdusa və hansı tədbirdə iştirak eləyirdisə, məktəbşünaslıqla bağlı kiçik bir sözü, ifadəni, ən çox da yeni təklifi bu əlahəzrət bloknota səliqəylə yazardı və ağlına batanı təkcə öz icraatında deyil, dəhlizdə, qapı ağzında, siniflərdə dərs zamanı, valideynlərlə görüşərkən, hamıya çatdırardı. Bircə məqsədi vardı:təlim-tərbiyə prosesində uğurlu nəticələr qazanılsın və məktəbin məzunlarının sorağı ali təhsil ocaqlarından gəlsin. Haqq üçün onun rəhbərliyi vaxtı, 4 nömrəli məktəb rayonda bayraqdar idi. Hər il raykoma, nazirliyə göndərilən sənədlərdə bu məktəbin məzunlarının əksəriyyətinin ali təhsil ocaqlarına qəbulu əks olunurdu. Neçə-neçə valideyn-övladının savadlı, bilikli olmasını arzulayan ata-ana Əliqulu müəllimə xahiş eləyir, yalvarırdı ki, qoy onun balası gəlib bu məktəbin şagirdi olsun...

Belə ab-hava, xoş ovqat onun ruhunu qanadlandırır, sevincini, fərəhini artırırdı. İrəliki gün Maarif şöbəsinin iclas zalında rayonun ümumtəhsil müəssisələrində nazirliyin xəttilə aparılan frontal yoxlamanın nəticələri müzakirə olunmuşdu və oradakı bəzi nüansları Əliqulu müəllim qeyd eləmişdi bloknotuna. Nazirliyin məsul işçisi, saç-saqqalını pedoqoi sahədə ağartmış N.Abdullayevin çıxışı hamı tərəfindən birmənalı qarşılanmışdı. Nəriman müəllim demişdi:

-Hamınıza gün kimi aydındır:hökumət bizdən tələb eləyir, tapşırır ki, harda, hansı vəziyyətdə yaşayır-yaşasın, uşaq mütləq məktəbə cəlb olunmalı, əgər fiziki qüsuru olsa, ona müəllim təyin edilməlidir.

-Görmüşük, bilirik: quşun bir qanadı olmasa, o havada cövlan eləyə bilməz. Təhsil də belədir:müəllim-valideyn tandemi olmasa istənilən uğurlara imza atmaq absurddur. Müəllim hər şagirdə fərdi yanaşmalı, mütləq və mütləq övladını məktəbə göndərən ata-analarla mütəmadi olaraq əlaqə saxlamalıdır. Yoxsa, nə qədər çalışsa, cəhd eləsə belə istəyinə nail ola bilməz.

-Biz ev tikəndə, həmişə bünövrəni möhkəm edirik ki, ailəmizin yaşadığı bu ev uzun ömürlü olsun. Təhsilin bünövrəsi I-IV siniflərdi. Uşaq ibtidaidə yaxşı oxusa, o, yuxarı siniflərdə axsamaz, fənn müəllimlərini çətin duruma salmaz. Ona görə ibtidaidə tədrisin gedişini məktəb direktorları daim nəzarətdə saxlamalıdır.

***

...Üç birinci sinif var. Müəllimlər çox cavandılar. Dərsdən çox özləri, geyim-keçimləri haqqında düşünürlər. Üçü də subaydı, ərə getmək arzusundadır... Elə 1 "a"-dan başladı. 16 uşaq dərsdədir. İstidir otaq: soba yanır, hamının paltosu asılqandadır. Əvvəlcə ümumi sorğu-sual:

-Məktəbdə zəng, parta, çanta nə üçün lazımdır?

-Harada yaşayırsan? Yaşadığın ünvanı söylə!

-İndi səhərdir, ya axşam?

-Səhər nahar eləyirsən, ya axşam?

Nahar əvvəl olur, ya şam yeməyi?

-İndi ilin hansı fəslidir:qışdır, bahardır, ya payız?

-Qar niyə qışda yağır, yayda yox?

-Müəllimə cavab vermək istəyəndə hansı əlini qaldırırsan: sağı ya solu?

Hay-küy...Gülüşmə... Ağız deyəni qulaq eşitmir. Hiss edir ki, hirslənir, özündən xəbərsiz vücudu titrəyir. Xəyalından keçir ki, ağzının acısını töksün pəncərə önündə dayanan müəllimənin üstünə... Yox, olmaz, düşünür: şagirdin yanında müəllimi tənbeh eləməzlər.

Jurnala baxır, 16-dan- 8-i əlaçıdır. Keçir fərdi sorğuya. Qiymətləri "beş" olanın birini-Tağıyev Adil Gülab oğlunu ayağa qaldırır, soruşur ondan:

-İki əlinin neçə barmağı var?

Tosqun, ətli-canlı, ağ sifətli uşaq heç fikirləşmədən, ucadan deyir:

-On bir!

Əsəbləri tarıma çəkilir, səbrini cilovlaya bilmir. Var gücüylə, onun üzünə sillə vurur. Uşaq səntirləyir, hönkürə-hönkürə çantasını da məktəbdə qoyub qaçır evlərinə...

Bir az sakitləşir.

-Hansı küçədən gəlir o? Ata-anası nəylə məşğuldu?

Özünü itirən müəllimə dillənir:

-Təzə binələrdəndi...Atası çöldə qalır, çobandı.

...Müəllimin iki barmağının izi açıq-aydın görükür, Adilin ağ üzündə... Anası Sarıgül söyüb-söylənir direktorun arxasınca: "Dəvədən böyük fil də var. Sabah raykoma gedəcəm şikayətə... O Əliqulu müəllimin başına oyun açmasam dədəmin qızı döyüləm... O, o olsun, mən".

Kəmhövsələ deyildi, oturuşunu-duruşunu bilən, dava-dalaşın sonunda peşimançılıq görən Gülab kişi heç qoymadı Sarıgül evdən qırağa çıxa. Adilin əlindən tutub gətirdi məktəbə. Baxmayaraq ki, o, çöl-bayır adamı idi, qanqaraldıcı, hay-küylü, ağzıbaşına danışmağa meyilli deyildi. Kəmali-ədəblə, hörmətlə direktora salam verdi. "Allah şeytana lənət eləsin" deyib, uşağın üzünü göstərdi. "Yaxın gəlin, baxın, and olsun o bir olan Allaha, bu körpə yalan danışmayıb".

O silləyə görə Əliqulu müəllim özü də peşiman olmuşdu, əzab çəkirdi... Axşam az götür-qoy eləmədi. Uşaqlığı gəlib dayandı gözləri önündə. Atası Məmmədəli II Dünya müharibəsinə gedib qayıtmamışdı, anası Gülzar kipriyi ilə od götürə-götürə, bir öynə ac, bir öynə tox böyütmüşdü onu. Yadındaydı, yazağzı çayüstü yerlərdə quşəppəyi, yağlıca, əməköməci... görəndə gözlərinə işıq gəlirdi... Birinci sinifdə oxuyarkən şalvarının dizində, köynəyinin arxasında neçə yamaq olardı. Dərsə bəzən ayaqyalın gedərdi...

Yaxınlaşıb diqqətlə baxdı. Bir gün ötməsinə baxmayaraq, iki barmağının izi hələ aydınca görükür Adilin ağ, kombul üzündə... Sinirləndi, gözləri doldu. Aşağı əyilib dönə-dönə öpdü onun üz-gözündən. Sonra ayağa qalxıb gəlib dayandı Gülabın qabağında:

-Bağışla məni, bağışla sən Allah...

Tövrünü pozmadı ağsaqqal:

-Müəllim, sən atovun goru, özün bax əllərinə... Soruşubsan ki, "iki əlinin neçə barmağı var?" O, da deyib: "Onbir". İndi yoxla, gör düz deyib, ya yalan?...

Tutdu uşağın əllərindən və gözləri dörd oldu: Vaay, bu nədi? Sağ əlin eyni boy-biçimdə iki baş barmağı var. Əsl Allah möcüzəsi!

***

Atını dördnala çapıb getdi zaman. Əliqulu müəllim çoxdan dəyişib dünyasını. Gülab kişi hər gün azından üç dəfə Ulu Yaradanına şükr edə-edə 90-nı yola saldı və qovuşdu haqqa...

Adil ailə başçısıdır. Malheyvan saxlayır, torpaq əkib halal zəhməti ilə dolandırır külfətini...Amma qonum-qonşu, hətta qohumlar belə öz adıyla çağırmır onu. Hamı ona "Altıbarmaq" deyir.

...Küçədə iki balaca qız uşağı görüşür. Birinin qucağında gəlincik var. O, bundan soruşur!

-Kim alıb onu sənə?

-Kim alacaq...Altıbarmaq babam!.

**Əlibala Rəhimov,**
**publisist, filoloq**
**"Qızıl qələm" mükafatı**
**laureatı,**
**Biləsuvar rayonu**



ədalət.-2016.-8 oktyabr.-S.11.